

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 114 (21.524)**

***23 iyun 2016-cı il, cümə axşamı***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 22 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyət göstərən bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qulluqçuları da vardır.

**Axundov Xəlil Məhərrəm oğlu**
**Babayev Sədrəddin Həsən oğlu**
**Babayev Tofiq Qaffar oğlu**
**Bağırov Hüseyn Əziz oğlu**
**Ələkbərov Sadıq Nəriman oğlu**
**Əliyev Fəxrəddin Yusif oğlu**
**Əsgərov Rəhim Əsgər oğlu**
**Həsənov Eldar Yusif oğlu**
**Qasımov İlqar Salman oğlu**
**Nağıyev Şəmsəddin Kamil oğlu**
**Novruzov Rafiq Novruz oğlu**
**Şirəliyev Firdovsi Əvəz oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə

**Rəsulov Rəsul İslam oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Muxtar respublikanın istehsal, təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanışlıq İsrail səfiri Dan Stavda xoş təəssüratlar yaradıb





***Xəbər verdiyimiz kimi, iyunun 21-də İsrail Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.***

Əvvəlcə qonaq ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

Sonra səfir Naxçıvan Dövlət Universitetində olub. Burada səfirə muxtar respublikada təhsilin inkişafına göstərilən qayğı, universitetin strukturu, maddi-texniki bazası, mövcud fakültə və ixtisaslar haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, dünyanın 80-dən çox tanınmış ali təhsil ocağı ilə beynəlxalq əməkdaşlığa malik olan universitet TEMPUS proqramı çərçivəsində 5 beynəlxalq layihənin iştirakçısıdır. Tələbə mobilliyinin inkişafı nəticəsində universitetin bakalavr və doktorantları öz təhsillərini Polşa, Rumıniya, İspaniya, İtaliya, Çexiya və digər ölkələrin ali məktəblərində davam etdirirlər.

Səfir Dan Stav Naxçıvan Biznes Mərkəzi ilə də tanış olub. Qonağa mərkəzin fəaliyyəti və muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri barədə məlumat verilib. Qeyd olunub ki, mərkəzdə muxtar respublikada istehsal olunan müxtəlif növ ərzaq və sənaye məhsulları, əl işləri və rəsm əsərləri sərgilənir. Həmçinin burada müxtəlif tədbirlər, biznes forumlar, işgüzar görüş və konfranslar keçirilir. Sərgi salonunda 97 müəssisənin 136 növdə və 916 çeşiddə məhsulu, müxtəlif sənətkarlar tərəfindən hazırlanan əl işləri və rəsm əsərləri nümayiş olunur.

Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyəti ilə tanış olan səfirə məlumat verilib ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan mərkəzdə bronxial-astma və ağciyər bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunur. 350 yerlik xəstəxanada temperatur sabitdir. Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən müraciətlər olur. Burada iki qadın, iki kişi, bir uşaq palatası və iki istirahət foyesi fəaliyyət göstərir. Yer altındakı duz dağının qalınlığı 8,2 metrdir. Havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Mərkəzdə duz layları arasında duz oksigen havanın 20 faizini təşkil edir. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir.

İyunun 22-də İsrail səfiri Kəngərli rayonunun Böyükdüz kəndinin ərazisindəki "Naxçıvan bağları" Tərəvəz Məhsulları İstixana Kompleksinə gəlib. Məlumat verilib ki, müəssisə yaradılarkən Sahibkarlığa Kömək Fondundan 2 milyon manat kredit götürülüb, 2 milyon 150 min manat şəxsi investisiyadan istifadə edilib. Kompleksin yaradılmasının əsas məqsədi əhalini ekoloji cəhətdən sağlam tərəvəz məhsulları ilə təmin etməkdən ibarətdir. İstixana kompleksində tərəvəz bitkilərinin əkini, şitil yetişdirilməsi, turşu istehsalı, dibçək güllərinin yetişdirilməsi və satışı sahəsi var, hazır məhsulların saxlanılması üçün soyuducu anbar mövcuddur. Kompleksdə Türkiyə, İspaniya, İsrail və İtaliya istehsalı olan ən müasir avadanlıqlar quraşdırılıb, məhsulların satış məntəqələrinə çatdırılması üçün soyuducu kameralı nəqliyyat vasitələri alınıb. Kompleks tam avtomatlaşdırılmış iqlim-nəzarət, istilik-mühafizə, havalandırma, gübrələndirmə və suvarma sistemləri ilə təchiz edilib. Burada damcı və çiləmə suvarma üsulundan istifadə edilir.

"Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq zamanı bildirilib ki, muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması "Badamlı" mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarıb, 2004-cü ildə özəlləşdirilən müəssisədə daha keyfiyyətli məhsul istehsalına başlanılıb. "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat verib. Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9 min 590, istehsal sahəsi isə 3 min 600 kvadratmetr olan yeni istehsal müəssisəsi 2009-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində qeyd olunub ki, müəssisədə keyfiyyətli müxtəlif meyvə şirələri, meyvə quruları, şərab, halva istehsal olunur. Burada İtaliya və Almaniya istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Naxçıvanda yetişdirilən meyvələrdən tam gigiyenik qaydada yüksəkkeyfiyyətli müxtəlif həcm və çeşidlərdə alma, ərik, şaftalı, gilənar, üzüm və qarışıq tərkibli nektarlar istehsal edilir. Həmin məhsullar "Badamlı" əmtəə nişanı ilə satışa çıxarılır. Müəssisədə istehsal olunan 4 çeşiddə kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları "Mirvari" və "Qızıl damla" adları ilə satışa çıxarılır. Cəmiyyət həmçinin 3 çeşiddə müxtəlif çəki və formalarda küncüdlü halva istehsalı ilə də məşğuldur. Əsasən, sadə, kakaolu və qarışıq növdə istehsal olunan halva yüksək keyfiyyətə malikdir. Çərəzqovurma və paketləmə sahəsində də texnoloji proseslərə ciddi əməl olunur, günəbaxan, qabaq, noxud, püstə və qarışıq çeşidli çərəzlər təmizlənib qovrularaq 90 və 200 qramlıq paketlərdə qablaşdırılır.

Bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin və ərzaq təhlükəsizliyi tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001 və İSO 22000 sertifikatlarına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb. Ötən ildən "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal edilən meyvə nektarları Gürcüstan bazarına çıxarılır.

Naxçıvan Günəş Elektrik Stansiyasında səfirə məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi ilə Belçika Krallığının "Soltech" şirkəti arasında bağlanan müqaviləyə əsasən Babək rayonunun Xal-xal kəndi yaxınlığında 20 meqavat gücündə Günəş elektrik stansiyası quraşdırılıb. Məqsəd muxtar respublikanın elektrik enerjisi tələbatının alternativ enerji mənbələri hesabına ödənilməsini təmin etmək və enerji təhlükəsizliyini daha da möhkəmləndirməkdən ibarətdir. Muxtar respublika ərazisində günəşli saatların orta illik kəmiyyətinin 2600-2800 saat təşkil etməsi bu işlərin uğurla yerinə yetirilməsinə imkan verir. Günəş elektrik stansiyası muxtar respublikanın enerji istehsalında alternativ enerji mənbələrinin ümumi payını xeyli artırıb, ucuz elektrik enerjisi istehsalına imkan verib.

İyunun 22-də Dan Stav Batabat yaylağı, Naxçıvan Dövlət Xalça Muzeyi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə də tanış olub. Naxçıvanın qədim tarixi abidələri səfirdə böyük təəssürat yaradıb.

İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stavın Naxçıvan Muxtar Respublikasına səfəri bu gün başa çatır.

**✍ Rauf ƏLİYEV**

## *"Bələdiyyə orqanlarında qanunvericiliyin tətbiqi ilə bağlı görülən işlər"* mövzusunda tədbir

***Kəngərli rayonunda "Bələdiyyə orqanlarında qanunvericiliyin tətbiqi ilə bağlı görülən işlər" mövzusunda tədbir keçirilib. Tədbiri Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açıb.***



Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli ədliyyə müşaviri Suliddin Əliyev məruzə ilə çıxış edib. Bildirilib ki, yerli əhəmiyyətli məsələlərin həllində artıq bələdiyyələrin konkret iş görmək təcrübələri və özlərinə inamları artıb. Ölkəmiz üçün demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ictimai həyatın bütün sahələrində köklü islahatlar həyata keçirilib. Yerli demokratiyanın inkişaf problemləri də dövlətimizin qayğısı ilə əhatə olunub və bu istiqamətdəki tədbirlər çərçivəsində mövcud normativ-hüquqi baza təkmilləşdirilib, bir sıra digər mühüm işlər həyata keçirilib.

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanunu inzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunan bələdiyyə aktlarının dairəsini müəyyən edir. Qanunun 6-cı maddəsinə əsasən, hər bir bələdiyyə qəbul etdiyi aktların bir surətini inzibati nəzarət qaydasında baxılması üçün həmin aktları qəbul etdikləri andan 15 gündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidir. Bu tələbin pozulmasının nəticəsidir ki, son 3 ildə 42 bələdiyyə sədri haqqında inzibati xəta protokolu tərtib edilərək tədbir görülməsi üçün məhkəmələrə göndərilib.

Qeyd olunub ki, muxtar respublikada bələdiyyə sədrlərinin və bələdiyyə qulluqçularının Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında peşə hazırlığına və ixtisasının artırılmasına cəlb olunmaları nazirlik tərəfindən mütəmadi təmin edilir. Bu məqsədlə də ötən il 20 bələdiyyə sədri, bu ilin ötən dövründə isə 15 bələdiyyə sədri və 5 bələdiyyə qulluqçusu Ədliyyə Akademiyasına göndərilib. Bu proses mütəmadi davam etdiriləcəkdir.

Tədbir iştirakçılarına "Yerli özünüidarə ilə bağlı hüquqi aktlar toplusu" və "Bələdiyyələrin maliyyə hesabatlarının tərtibinə dair məsələlər toplusu" kitabları təqdim olunub.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Dövlət Miqrasiya Xidməti Ordubad rayonunda maarifləndirici tədbir keçirib

"Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti" mövzusunda keçirilən tədbirdə inzibati ərazi dairələri üzrə nümayəndələr, polis sahə müvəkkilləri, rayon sakinləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elnur Məmmədov əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqda maarifləndirici tədbirlərin əhəmiyyətindən, son illərdə muxtar respublikada infrastruktur quruculuğu, əhalinin məşğulluğu, sahibkarlığa, turizm potensialının artırılmasına göstərilən dövlət dəstəyi istiqamətində görülən işlərdən, Naxçıvanın turizm potensialından, miqrantların bu bölgəyə böyük maraq göstərməsindən danışıb.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarından Elnur Zellabdinovun, İlkin Rəhimovun, Ramin İbrahimovun çıxışları olub. Çıxışlarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı, onlara ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi, miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə mövcud qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət haqda iştirakçılara ətraflı məlumat verilib.

Sonra mövzu ətrafında müzakirələr aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı bəzi məsələlərə aydınlıq gətirilib.

Tədbirə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elnur Məmmədov yekun vurub.

**Xəbərlər şöbəsi**



23 iyun dövlət qulluqçularının peşə bayramıdır

## Dövlət qulluğunda çalışmaq dövlətə və xalqa xidmət imkanıdır

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamına əsasən, hər il iyunun 23-ü ölkəmizdə dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd olunur.***

Ölkəmizdə müasir dövlət quruluğu sisteminin formalaşması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə ali hakimiyyətə gəlişindən sonra ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar edilmiş, dövlət idarəçiliyinin yeni əsasları formalaşdırılmış və Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuşdur. Dahi şəxsiyyətin rəhbərliyi ilə dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi prosesinə başlanmış və bu istiqamətdə kompleks tədbirlər həyata keçirilmişdir. Dövlət qulluğunun səmərəliliyinin artırılması, dövlət aparatının təkmilləşdirilməsi, dövlət qulluqçularının hüquqi statusunun müəyyən edilməsi, onların sosial müdafiəsinin, maddi müstəqilliyinin təmin edilməsi və eyni zamanda məsuliyyətlərinin artırılması məqsədilə 2000-ci il 21 iyul tarixdə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Bu gün Azərbaycanda milli dövlət quruculuğu istiqamətində islahatlar uğurla davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə cavab verən çevik dövlət idarəçilik sisteminin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək dövlət təminatına nail olunması diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikasında da dövlət qulluğu sahəsində aparılan islahatlar uğurla davam etdirilir. Son illər muxtar respublikada müasir tələblərə cavab verən dövlət qulluğu sistemi formalaşdırılmışdır. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binaların tikilməsi və maddi-texniki bazanın gücləndirilməsi, dövlət quluqçularının fəaliyyətinin yaxşılaşdırılması, onlara lazımi iş şəraitinin yaradılması, işində fərqlənən dövlət qulluqçularının təltif edilməsi dövlət qulluğuna göstərilən diqqət və qayğının ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır. Komissiyanın yaradılmasında əsas məqsəd muxtar respublikada kadr siyasətinin həyata keçirilməsi, dövlət qulluğu ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə yolu ilə seçilməsi, yerləşdirilməsi və digər məsələlər barəsində qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Fəaliyyətə başladıqdan qısa müddət sonra komissiya üçün yeni inzibati binanın tikilməsi, informasiya və kommunikasiya texnologiyalarından istifadəyə imkan verən test mərkəzinin, lokal kompüter şəbəkəsinin, mərkəzi server sisteminin yaradılması fəaliyyətin günün tələbləri səviyyəsində qurulmasına şərait yaratmışdır.

Hazırda komissiya tərəfindən dövlət orqanlarında dövlət qulluğuna aid normativ aktların tələblərinə riayət olunması nəzarətdə saxlanılır, onlara dövlət qulluqçularının şəxsi işlərinin və reyestrinin aparılması qaydaları, ixtisas dərəcələrinin verilməsi və digər məsələlərlə bağlı metodiki köməklik göstərilir. Bu ildən etibarən isə muxtar respublikada dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə başlanılmışdır. Komissiya tərəfindən indiyədək keçirilmiş 10 müsabiqədə 3423 namizəd iştirak etmiş, onlardan 647-si müsabiqəni müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunmuşdur. Bundan başqa, komissiyanın təşkilatçılığı ilə dövlət qulluğunun xüsusi növünə aid olan orqanlar üzrə 27 müsabiqənin test imtahanları keçirilmiş, bu imtahanlarda 1191 namizəd iştirak etmiş, onlardan 337-si müvafiq keçid balını toplamışdır. Dövlət orqanlarında boş yerlərin tutulması üzrə keçirilən müsabiqələrdə iştirak edənlərin sayının ildən-ilə artması onu göstərir ki, bu sahədə görülən işlər öz bəhrəsini verir və gənclərin dövlət qulluğuna marağı artır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən yeni proqram təminatının yaradılması komissiyanın fəaliyyətinin yaxşılaşmasına səbəb olmuş, elektron xidmətlərin həyata keçirilməsinə, namizədlərin internet üzərindən qeydiyyatdan keçməklə müsabiqədə iştirakına imkan yaratmışdır. Bütün bunlar elektron sənəd qəbulu işinin sürətlənməsinə, vaxt itkisinin minimuma endirilməsinə və şəffaflığın tam təmin olunmasına səbəb olmuşdur. Dövlət Qulluqçularının Reyestrinin aparılması üçün də proqram təminatı hazırlanmışdır ki, bu da dövlət orqanlarının mövcud kadr potensialından səmərəli istifadə edilməsinə, dövlət qulluqçuları haqqında məlumatların toplanılması və təhlilinə, habelə dövlət qulluğuna kadrların seçilməsi işinin daha da şəffaflaşmasına imkan yaratmışdır. Hazırda muxtar respublikanın dövlət orqanlarında fəaliyyət göstərən 2428 dövlət qulluqçusu barədə məlumatlar reyestrə daxil edilmişdir ki, onlardan 1821-i inzibati və 550-si yardımçı vəzifə daşıyır. Dövlət qulluqçularının 23,5 faizini gənclər, 23,4 faizini isə qadınlar təşkil edir.

Həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini artırmaqla yanaşı, sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə uyğun dövlət idarəçiliyi sisteminin qurulmasına səbəb olmuşdur. Dövlət qulluqçuları yüksək diqqət və qayğı ilə əhatə olunmuşdur. Göstərilən qayğının müqabilində hər bir dövlət qulluqçusu bundan sonra da səylə çalışmalı, muxtar respublikamızın inkişaf və tərəqqisinə öz töhfəsini verməlidir. Yaradılmış şəraitə cavab olaraq "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan edilmiş 2016-cı ildə işini günün tələbləri səviyyəsində qurmaq, muxtar respublikada dövlət qulluğu siyasətinin həyata keçirilməsində üzərinə düşən öhdəlikləri məsuliyyətlə yerinə yetirmək dövlət qulluqçularının qarşısında duran əsas vəzifələrdəndir.

*Dövlət qulluğu təkcə geniş səlahiyyət deyil, eyni zamanda cəmiyyətdə gedən proseslərin idarə olunması və cəmiyyətin inkişafı üçün məsuliyyət deməkdir. Dövlət qulluqçusu unutmamalıdır ki, o, idarəetmə və digər funksiyaları icra edərkən, ilk növbədə, dövlətin və cəmiyyətin mənafeyini əsas götürməli, ona tapşırılan hər bir vəzifəni böyük məsuliyyət və ləyaqətlə yerinə yetirməlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Hər bir dövlət qulluqçusu bilməlidir ki, o, ilk növbədə, dövlətin güzgüsüdür. Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

İstehsal müəssisələri



## "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal edilən məhsullar xarici bazara çıxarılacaq

***Son illər Naxçıvanda yaradılan istehsal müəssisələrindən biri də "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətidir.***

Layihəyə uyğun olaraq, laminat-mətbəx dəzgahı, PVC akrilik parlaq panellər və melamin örtüklü plitələr istehsal olunması nəzərdə tutulan müəssisədə artıq laminat-mətbəx dəzgahı və PVC akrilik parlaq panellər istehsalı sahələrində İtaliyanın "Omma" və "Osoma", Almaniyanın "İdm", Türkiyənin "AS Metal" və "Türk makina" şirkətlərinin istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi avtomatlaşdırılıb.

Hər birinin aylıq istehsal gücü 10 min ədəd mebel materialları olan yeni istehsal sahələrində xammal ayrı-ayrı mərhələlərdən keçməklə rəng olaraq 100 çeşiddən çox məhsul istehsal edilir. Əvvəllər ölkəmizdə, o cümlədən muxtar respublikamızda fəaliyyət göstərən mebel istehsalı müəssisələrinə hazır materiallar xarici ölkələrdən idxal olunub əlavə daşınma xərci çəkilirdisə, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb, istehsal müəssisələri vaxtında və keyfiyyətli mebel materialları ilə təmin olunub.

Mebel istehsalı müəssisələrini yüksəkkeyfiyyətli mebel materialları ilə təmin edən "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarına artan tələbatın ödənilməsi üçün bir sıra tədbirlər həyata keçirilir. Müəssisədə ağac yonqarları lövhələrinin boyanması sahəsi və anbar binalarının layihəsi hazırlanıb. Layihəyə uyğun olaraq, ağac yonqarları lövhələrinin boyanması sahəsi üçün 1860 kvadratmetr, anbar binasının inşası üçün isə 1645 kvadratmetr torpaq sahəsi ayrılıb, əraziyə kommunikasiya xətləri çəkilib. Müasir tələblərə cavab verən anbar binası inşa olunub, ətrafında abadlıq işləri aparılıb. Hazırda ağac yonqarları lövhələrinin boyanması sahəsi üçün binanın inşasına hazırlıq işləri görülür.

Yeni istehsal müəssisəsinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılıb, müəssisədə çalışan işçilərin Türkiyə Respublikasında ixtisasartırma kurslarında iştirakı təmin olunub. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.



Gələcəkdə müəssisədə melamin örtüklü plitələr istehsalı sahəsinin istifadəyə verilməsi nəzərdə tutulur ki, buraya da mebel avadanlıqları istehsalında qabaqcıl təcrübəyə malik, dünyada məşhur olan Almaniyanın "Wemhoner" şirkətinin avadanlıqları alınıb gətiriləcək və idxal olunan dəzgahlar həmin şirkətin mütəxəssisləri tərəfindən quraşdırılacaqdır. Melamin örtüklü plitələr istehsalı sahəsi istifadəyə veriləndən və müəssisə tam gücü ilə işləyəndən sonra, ümumilikdə, 110 nəfər daimi işlə təmin ediləcək.

Mebel materialları istehsal edilən bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. Yeni müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, ölkəmizin digər regionlarında da satışa çıxarılır. Hazırda istehsal edilən mebel materiallarının xarici ölkələrdə tanıdılması ilə bağlı tədbirlər görülür. Bu sahə üzrə qabaqcıl təcrübəyə malik şirkətlərlə təcrübə mübadilələri aparılır, biznes əlaqələri qurulur ki, bu da Naxçıvan məhsullarının xarici bazarlara ixrac olunmasına imkan verəcək. Ayrı-ayrı şirkətlərlə bağlanmış müqaviləyə uyğun olaraq, "Dekor Qrup" MMC-də istehsal edilən mebel materialları yaxın vaxtlarda xarici bazara çıxarılacaq.

**Kərəm HƏSƏNOV**

## Culfa rayonunun Gülüstan və Xanəgah kəndlərində quruculuq işləri aparılır

***Muxtar respublikamızın digər bölgələri kimi, Culfa rayonu da son illər hərtərəfli qayğı ilə əhatə olunub, sürətli inkişaf yolu keçib. Regionumuzda davamlı xarakter alan və sosial-iqtisadi inkişafın bəhrələri olan quruculuq tədbirləri bu rayonu da öz ağuşuna alıb. Məhz belə tədbirlər hesabına bu gün Culfa rayonu öz inkişafının yeni mərhələsinə qədəm qoyub.***

Hazırda rayonun müxtəlif ünvanlarında kompleks quruculuq tədbirləri uğurla davam etdirilir. Belə tədbirlərdən Gülüstan kəndinə də pay düşüb. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsinin inşaatçıları kənddə kompleks quruculuq tədbirlərini həyata keçirir. Belə ki, idarənin inşaatçıları tərəfindən burada məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa olunur. Bu tədbirləri keyfiyyətlə yerinə yetirmək üçün inşaatçılara hərtərəfli şərait yaradılıb. İnşaatçılar bu şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər. Bunun nəticəsidir ki, Gülüstan kənd tam orta məktəbi üçün tikilən binada yaradılan şərait hesabına ötən müddət ərzində xeyli inşaat işi görülüb. Üç mərtəbədən ibarət olan 156 şagird yerlik binada tikinti işləri əsasən başa çatdırılıb, çardaq hissə qurulub, hazırda suvaq işləri aparılır.

Adıçəkilən tikinti təşkilatının bir qrup inşaatçısı Gülüstan Kənd Mərkəzinin inşası ilə məşğuldur. Bu mərkəzdə kənddə fəaliyyət göstərən dövlət qurumları üçün hərtərəfli iş şəraiti yaradılacaq. İki mərtəbədən ibarət olacaq kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana və mədəniyyət evi fəaliyyət göstərəcək. Obyektdə tikinti işləri əsasən başa çatdırılıb.

Gülüstanlılara daha bir dövlət qayğısının ifadəsi olan xidmət mərkəzində sənaye və təsərrüfat malları mağazaları və müxtəlif xidmət sahələri fəaliyyət göstərəcək. Hər üç obyektin yerləşdiyi ərazidə abadlıq işləri aparılacaq, yaşıllıq zolaqları salınacaq, buraya daimi su xətti çəkiləcək.

Adıçəkilən tikinti idarəsinin bir qrup inşaatçısı isə Xanəgah kəndində 2 mərtəbəli həkim ambulatoriyasının tikintisində çalışır. Bu obyektdə son tamamlama işləri həyata keçirilir.

Məlumat üçün bildirək ki, Naxçıvan-Ordubad magistralından Culfa şəhərinə gedən yol və bu yoldan Gülüstan kəndinə ayrılan yol da yenidən qurulur.

**Xəbərlər şöbəsi**

***Azərbaycanın qədim tarixə malik bölgələrindən biri olan Ordubad gözəl təbiəti və özünəməxsus dəyərləri ilə seçilir. Uzaq və Yaxın Şərq ölkələrini Avropa ilə birləşdirən Böyük İpək Yolunun Ordubaddan keçməsi onun hərtərəfli inkişafına böyük təsir göstərmişdir. Ordubad memarlıq abidələri, qonaqpərvər insanları, istedadlı ziyalıları və igid oğulları ilə tarixən bura gələn səyyah və qonaqları valeh etmişdir. İlk insan məskənlərindən biri kimi də tanınan bu yurdun məstedici guşələrini sözlərlə təsəvvür etmək mümkün deyil. Təbiəti gənclərə qüvvət, yaşlılara hikmət verən, insanda ilham yaradan nadir yurd yerlərindən biridir Ordubad. Bizim isə bu ecazkar yurda səfərimizin məqsədi buradakı digər tarixi abidələr kimi, bu gün də öz əhəmiyyətini saxlayan məscidlər barədə yazı hazırlamaq idi.***

*Memarlıq incilərimiz*

# Minarəsiz məscidlər



Came məscidi



Mingis məscidi



Sərşəhər məscidi

Qeyd edək ki, Ordubaddakı tarixi abidələr içərisində məscidlər mühüm yer tutur. Ordubad Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyevin sözlərinə görə, Ordubad şəhərində hazırda 24 məscid fəaliyyət göstərir. Tarixə şahidlik etmiş bu qədim memarlıq abidələrinin ən böyükləri Came, Ambaras, Sərşəhər və Mingis məscidləridir. Qalanları şəhər küçələrinin mənəvi naxışları olan məhəllə məscidləridir. Yolumuz Came məscidinə tərəfdir. Yolda nurani bir ağsaqqal kişi salam verib, gülərüzlə nə axtardığımızı soruşur. Tanış olduğumuz Mirəşrəf adlı bu şəhər sakini Ordubadın tanınan, sözükeçən ağsaqqalıdır. Bizə kömək etmək istədiyini, təcrübəsinin faydalı olacağını bildirir. Mən də, – xeyir-bərəkət yaşlıların yanındadır, – deyib Mirəşrəf dayının bizə qoşulmağına çox sevinirəm. Bir az getdikdən sonra orta əsrlərə aid memarlıq abidəsi olan və şəhərin hündür yerində yerləşən Came məscidinin qarşısına çatırıq. Came məscidində hər namaz vaxtı azan verilir, insanlar Uca Allaha ibadətə və birliyə dəvət olunur. Ancaq burada minarədən yox, İslamın ilk dövrlərində olduğu kimi məscid damının üstündən azan verilir. Minarənin olmamasının səbəbi kimi şəhərin relyefi göstərilir. Şəhərin relyefi buradakı məscidlərdə minarələrin tikilməsinə ehtiyac yaratmayıb, çünki bir məsciddə verilən azan hər yerdən eşidilirmiş və indinin özündə də bu, belədir. Eyni zamanda bu məscidlərin əksəriyyəti Sovetlər Birliyi dövründə ya bağlı olmuş, ya da anbar kimi istifadə edilmişdir. Baxımsız qaldığından dağılaraq yararsız vəziyyətə düşmüş məscid binalarının bir qismi müxtəlif dövrlərdə bərpa edilmişdir. Ancaq müstəqilliyimizin bərpasından sonra Ordubad da dini dəyərlərimizi sərbəst şəkildə yaşatmağa davam etmiş, nəticədə, tarixi tikililər olan məscid binalarının böyük əksəriyyəti yenidən bərpa olunmuşdur. Bu işlərdən Came məscidinə də pay düşmüşdür. Qeyd edək ki, Came məscidində qadınlar və kişilər üçün ayrı giriş qapısı vardır. Bu tarixi abidəni görənlər üçün maraqlı edən amillərdən biri də məscidin həyətində yaşı minillərlə ölçülən çinar ağacları və şəfalı suyu olan qədim kəhrizin olmasıdır. Öyrəndik ki, 1901-1902-ci illərdə məsciddə təmir işləri aparılarkən tapılmış bir kitabə üzərindəki yazıdan onun əsasının hicri 111-ci (miladi 729-cu il) ildə qoyulduğu aydın olur. Bu tarix İslam dininin yayıldığı ilk vaxtlara uyğun gəlir. Bu da onu sübut edir ki, hələ o dövrlərdə Ordubad inkişaf etmiş yaşayış məskənlərindən biri olmuşdur. Məscidin şimal qapısı üzərində olan daş lövhədəki yazılı kitabə diqqətimizi çəkir. Bu lövhədə I Şah Abbasın nəsx xəttilə farsca beşsətirlik fərmanı həkk olunmuşdur. 1604-cü ilə aid olan fərmana əsasən, Ordubad əhalisi göstərdiyi mərdlik, şücaət və müdrikliyinə görə bütün vergilərdən azad olunur. Bu yazılı kitabə həm də yuxarıda qeyd etdiyimiz kimi onu göstərir ki, ordubadlılar elmin, mədəniyyətin inkişafında mühüm rol oynamışlar. Came məscidinin cənubundakı meydanda vaxtilə karvansaraylar, dükanlar olmuşdur.

Buradan ayrılıb yolumuzu şəhərin digər qədim abidəsi olan Ambaras məscidinə tərəf salırıq. Mirəşrəf kişinin dediyinə görə, Ordubad şəhərindəki hər məhəllədə bir məscid ibadət zamanı buradakı insanların digər ünvanlara zəhmət çəkib getməmələri üçün tikilmişdir. Elə İslam dini də birlik, bərabərlik, insanlara sevgi və mehribanlıq aşılayır. Həzrəti Peyğəmbərdən belə bir rəvayət var ki, özün üçün istədiyini qonşun üçün də istə, özünə rəva bilmədiyini başqasına da rəva görmə. Hansı qapının önündən keçiriksə, "buyurun, qonağımız olun", – deyə dəvətlər eşidirik. Muxtar respublikanın hər tərəfində olduğu kimi, burada da həyət qapısını açıq saxlamaq normal haldır. Ev sahibi bilir ki, izinsiz heç kəs içəri daxil olmaz. Elə ordubadlıların qonaqpərvərliyi haqqında söhbət edə-edə el arasında yerləşdiyi küçənin adı ilə tanınan, XVII-XVIII əsrlərə aid tarixi abidə olan Ambaras məscidinin qarşısına gəlib çıxırıq. Məscidin tavanında taxta üzərində yazılmış kitabədə binanın hicri 1284-cü (miladi 1867-68) ildə Cəfərqulu Ağababa oğlu tərəfindən təmir olunduğu və adının da "Ağa Mirzə Cəfər məscidi" kimi həkk edildiyi görünür. Ehtimal ki, məscidin binası XVII əsrdə Ağa Mirzə Cəfər tərəfindən inşa olunmuşdur. Burada da minarə yoxdur. Yenə də qoca çinar ağacları və qədim çeşmə məscidə yoldaşlıq edir. Mövzumuza aid olmasa da, bir məqamı oxucuların nəzərinə çatdırmaq istəyirəm. Məscidin həyətində yas mərasimi olduğunu görüb biz də içəri daxil olduq. Bir qayda olaraq masaların üzərində qənd və limonlu çaydan başqa, heç nə gözə dəymir. Bunu ona görə xatırladım ki, muxtar respublikamızdakı məscidlərdən hüzr yığıncaqları kimi də istifadə edilir, eyni zamanda İslam qaydalarına uyğun olaraq ehsan verilməsində israfçılığa yol verilmir.

Növbəti ünvanımız Sərşəhər məhəlləsində yerləşən eyniadlı məsciddir. İkimərtəbəli məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulmuşdur. XVIII əsrin əvvəllərinə aid məscidin ikinci mərtəbəsindəki kitabxanada dini kitablar və əlyazmalar saxlanılır. Bu məscid də digərlərindəki kimi minarəsizdir və meydanında yaşı yüzilllərlə ölçülən çinar ağacı və çeşmə var. Çinar ağacının içərisi böyük ölçüdə oyuqdur. Mirəşrəf dayının dediyinə görə, vaxtilə bu çinarın içərisində 4 nəfərin rahatlıqla oturub çay içməsi üçün şərait olmuşdur. Deyilənlərə görə, ağacın 500 ildən çox yaşı vardır. Belə çinarları Ordubadın bir çox yerində görmək mümkündür. XIX əsrin əvvəllərində Ordubadda olmuş Derptsk Universitetinin professoru A.Petçold şəhərdə olan çinarlar haqqında əbəs yerə deməyib ki, belə çinarları mən ancaq Ayasofiya məbədinin həyətində görmüşəm, amma bu çinarlar onlardan daha gözəldir.

Nəhayət, böyük məscidlərin sonuncusu olan Mingis məscidinin yanına gəlib çatırıq. Ordubad şəhərinin Mingis məhəlləsində yerləşən bu tarixi-memarlıq abidəsi (vaxtilə giriş qapısının baş tərəfində qoyulmuş mərmər lövhə üzərindəki kitabədən aydın olur) hicri-qəməri təqvimi ilə 1088-ci ildə (miladi 1677) Əbdülhüseyn Ordubadinin oğlu Məhəmməd Hadi tərəfindən bərpa etdirilmişdir. XVII əsrin II yarısında bərpa edilən məscidin inşası daha əvvəlki dövrlərə aiddir. Birinci mərtəbəsi təsərrüfat məqsədləri üçün nəzərdə tutulan məscidin içərisi geniş formada olub, iki mərtəbədən ibarətdir. Zaman keçdikcə dağıntıya məruz qalmış məscid 2001-ci ildə bərpa edilmişdir. Digər məscidlərdə olduğu kimi, buradakı məscidin həyətində də çinar ağacı və kəhriz mövcuddur.

Məscidin gözəlliyi sadəliyində, bəzəyi isə içərisində olan insanlardadır. Ümumiyyətlə, Ordubad məscidləri həm sadəliyi, həm də tikilişinə görə İslam dininin ilk dövrlərindəki məscidlərlə bənzərlik təşkil edir. Məscidlər bir zamanlar həm də mədrəsə rolunu oynamışdır. Bu da onu göstərir ki, hələ qədim zamanlardan Ordubadda elm, təhsil və mədəniyyət yüksək səviyyədə inkişaf etmişdir. Şəhərdən ayrılarkən minarəsiz məscidlərdən azan səsi gəlir, təbiətin sevinc göz yaşları olan yağış ulu yurdun üzərində nəğməsinə başlayırdı.

*Sonda onu demək istəyirəm ki, hər bir vətəndaş tarixi dəyərlərini öyrənməli və qorumalıdır. Hər birimizin müqəddəs borcu vətənin müdafiəsi olmalıdır. Vətənin müdafiəsi isə o zaman güclü olur ki, onun tarixinə, dəyərlərinə sevgi sonsuz olsun.*

**Hüseyn ƏHMƏDOV**

## Sığorta-pensiya sistemi ilə bağlı qanunvericiliyin pozulmasına görə cərimələrin məbləği artırılıb

Ölkəmizdə sığorta-pensiya sisteminin fəaliyyəti "Sosial sığorta haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu sosial sığorta sahəsində münasibətləri tənzimləyir. "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanunu sığortaolunanların sosial müdafiə hüquqlarının təminatı üçün zəruri məlumatların fərdi qaydada qeydiyyatı və uçotunun təşkilinin hüquqi əsaslarını və prinsiplərini, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu isə sığortaolunanların əmək pensiyası hüquqlarının yaranması əsaslarını və bu hüquqların həyata keçirilməsi qaydalarını müəyyən edir.

Sığorta-pensiya sisteminin əsasını təşkil edən adıçəkilən qanunların normalarının sığortaedənlər və sığortaolunanlar tərəfindən pozulması hallarının qarşısının alınması üçün qanunvericilikdə müəyyən cərimələr nəzərdə tutulub. Belə ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində əmək pensiyaları haqqında qanunvericiliyin pozulmasına, məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınmağa, dövlət sosial sığorta sistemində fərdi uçot haqqında qanunvericiliyin pozulmasına görə cərimələr müəyyən edilib.

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli Qanunu ilə 2000-ci il 1 sentyabr tarixində qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsi 2016-cı il 1 mart tarixindən qüvvədən düşüb və həmin tarixdən yeni İnzibati Xətalar Məcəlləsi qüvvəyə minib.

Əmək pensiyaları haqqında qanunvericiliyin pozulmasına görə qüvvədə olan İnzibati Xətalar Məcəlləsinin 191-ci maddəsində cərimə nəzərdə tutulub. Əmək pensiyasını təyin edən orqan tərəfindən əmək pensiyasının ödənilməsi barədə qərarın "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə qəbul edilməməsinə, qəbul edilmiş qərarda pensiya təyin olunmasından imtinanın səbəblərinin göstərilməməsinə və əmək pensiyasının təyin olunmasından imtina barədə qərarın həmin qanunda nəzərdə tutulmuş müddətdə müraciət edənə göndərilməməsinə görə əvvəlki İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş otuz beş manatdan səksən manatadək cərimə məbləği, yeni məcəllə ilə min manatdan min beş yüz manatadək, əmək pensiyaçısı və işəgötürən tərəfindən əmək pensiyasının və əmək pensiyasına əlavənin məbləğinin dəyişməsinə və ödənilməsinin dayandırılmasına səbəb olan hallar barədə məlumatın əmək pensiyasını təyin edən orqana verilməməsinə görə müəyyən edilmiş otuz manatdan qırx manatadək olan cərimə məbləği isə səksən manatdan yüz manatadək artırılıb.

İnzibati Xətalar Məcəlləsinin 460-cı maddəsində az miqdarda məcburi dövlət sosial sığortahaqqını ödəməkdən yayınmağa görə hesablanmış məcburi dövlət sosial sığortahaqqının 30 faizindən 70 faizinədək miqdarda cərimə nəzərdə tutulub. Bu maddə üzrə az miqdar dedikdə iyirmi min manatdan yuxarı olmayan məbləğ başa düşülür. Həmin maddədə nəzərdə tutulmuş əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə inzibati məsuliyyətdən azad olunur.

Həmçinin dövlət sosial sığorta sistemində fərdi uçot haqqında qanunvericiliyin pozulmasına görə adıçəkilən məcəllənin 477-ci maddəsilə məsuliyyət müəyyən edilib. Belə ki, müəyyən olunmuş müddətdə sığortaedənlər sığortaolunanların fərdi uçot sistemində uçota alınmasını təmin etmədikdə onlara yazılı xəbərdarlıq olunur. Xəbərdarlıqda göstərilən müddət ərzində qanun pozuntusu aradan qaldırılmadıqda sığortaedənə cərimə tətbiq edilir. Əgər Dövlət Sosial Müdafiə Fondunun müvafiq orqanı tərəfindən sığortaedənlərdə fərdi uçot sistemində uçota alınması təmin edilmədən bir aydan çox fəaliyyət göstərən sığortaolunan aşkar olunarsa, sığortaedənlərə cərimə tətbiq edilir. Fərdi uçot haqqında qanunvericiliyin pozulmasına görə cərimə məbləği əvvəlki məcəllə ilə fiziki şəxslər üçün otuz manat, vəzifəli şəxslər üçün səksən manat miqdarında müəyyənləşdirildiyi halda, yeni İnzibati Xətalar Məcəlləsi ilə bu məbləğ fiziki şəxslər üçün yüz manat, vəzifəli şəxslər üçün üç yüz əlli manat müəyyən olunub.

Göründüyü kimi, qeyd etdiyimiz maddələr üzrə yeni İnzibati Xətalar Məcəlləsində cərimələrin məbləği əvvəlki İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş cərimələrin məbləği ilə müqayisədə artırılıb. Bu isə sığortaedənləri və sığortaolunanları daha da məsuliyyətli olmağa, eyni zamanda qüvvədə olan qanunların tələblərini pozmamağa sövq edir.

**Hürü MƏHƏRRƏMLİ**
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı***

## *"İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi"* mövzusunda kurs təşkil olunub

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan Regional Peşə Tədris Mərkəzində "İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi" mövzusunda maarifləndirici kurs təşkil olunub.***

İyunun 20-də başlayan və 7 iş günü davam edəcək ixtisasartırma kursuna "Dizayn", "Cahan Pen", "Cahan AVM", "Dekor Qrup", "Gəmiqaya Mebel Fabriki", "Gəmiqaya Bərəkət Qida Məhsulları", "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, Naxçıvan Şəhər Təsərrüfathesabli Nəqliyyat İdarəsinin, Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin və Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin əməyin mühafizəsi üzrə, ümumilikdə, 10 mütəxəssisi cəlb edilib.

Kursda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən əməyin mühafizəsi sahəsində mülkiyyətçinin, işəgötürən və işçilərin vəzifələri, işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşəəmək qabiliyyətlərinin itirilməsi hallarından icbari sığortası, onların əməyin mühafizəsi qaydalarına əməl etmələrinə nəzarət, qadınların və yaşı 18-dən az olan işçilərin əməyin mühafizəsinin tənzimlənməsinin xüsusiyyətləri, həmçinin Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin nümayəndəsi tərəfindən istehsalatda baş verən qəzalar zamanı zərərçəkənə ilk tibbi yardımın göstərilməsi ilə bağlı mövzular tədris olunur.

Yekunda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

Qeyd edək ki, bu tədbir "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın işçilərin əmək hüquqlarının təmin edilməsi bəndinin icrası ilə bağlı olaraq təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Yeni nəşrlər

## Xoşbəxtlik hər kəsin həyatda can atdığı sirli dünyadır




***Bu sirli dünyaya – xoşbəxtlik dünyasına milliyyətindən, irqindən, cinsindən asılı olmayaraq, hamı can atır, hamı xoşbəxt olmaq istəyir və bu gün də bu istək və arzunun arxasınca gedir. Lakin hər kəs xoşbəxt olmağı, yaxud onu əldə etməyi bir cür dərk edir. Xoşbəxtliyə aparan yolun düzgün müəyyənləşdirilməsində milli dəyərlərimizin mayası hesab olunan etik normalar və onun müxtəlif istiqamətləri, xoşbəxtlik məfhumunun bu normalardan necə qidalanması və inkişaf etməsi bu gün də tədqiqatçı alimlərimizin nəzər-diqqətindədir və bu istiqamətdə aparılan araşdırmaların coğrafiyası getdikcə genişlənir.***

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, Əməkdar elm xadimi, professor Oruc Həsənlinin və İstanbul Esenyurt Universitetinin uzman psixoloqu Davud İbrahimoğlunun birlikdə ərsəyə gətirdikləri “Sirli dünya – xoşbəxtlik” (İnsan psixologiyasının sirli dünyası) kitabı da dediyimiz araşdırmaların elmi nəticəsidir. Kitabda elmi cəhətdən əsaslandırılaraq göstərildiyi kimi, xoşbəxtlik öz-özlüyündə çox mürəkkəb və çox geniş bir problemdir. Bu problemin ictimai-iqtisadi, sosioloji, antropoloji, etik, psixoloji, estetik aspektləri vardır ki, bu aspektlər hərtərəfli öyrənilib tədqiq edilmədən həmin problemin düzgün həlli mümkün deyil. İnsan həyatının özü ən qiymətli, ən dəyərli əxlaqi sərvətdirsə, bu həyatın ən qiymətli sərvəti xoşbəxtlikdir. Qədim dövrün materialistlərindən olan Epikür yazırdı ki, həyat insan üçün ən böyük nemətdir. Onu tam dolğun yaşamaq və başa vurmaq lazımdır. Özünü dünya nemətlərindən, həzz və zövqlərdən məhrum etmək bədbəxtlikdir. Onun fikrincə, dolğun həyat keçirmək isə, öz növbəsində, insan arzularının ardıcıl surətdə ödənilməsindən ibarətdir ki, həmin arzuların fövqündə xoşbəxtlik dayanır.

Müəlliflər kitabda qədim dövr materialistləri ilə yanaşı, müxtəlif əsrlərdə müxtəlif millətlərə mənsub olan filosofların elmi araşdırmalarına və fikirlərinə müraciət edərək mövzular üzrə öz fikirlərini əsaslandırmağa çalışıblar.

Kitab altı fəsildən ibarətdir. Müəlliflər I fəsildə “Xoşbəxtlik haqqında mütəfəkkirlərin fikirləri”, “Xoşbəxtlik və ideal”, “Həyatın mənası və xoşbəxtlik”, “Xoşbəxtlik nədir?”, “Xoşbəxt olmaq nədir?”, II fəsildə “Dəyişən dünyada xoşbəxtliyə çatmaq üçün nələr etməliyik?”, “Dəyişmək və xoşbəxtliyin əlaqəsi”, III fəsildə “Pozitiv düşüncə”, “Pozitiv həyat”, “Müsbət düşüncə”, “Hafizə və təhlükə”, “Yin-Yanq nədir?”, “Həyatın məğzi”, IV fəsildə “Bədbəxtliklərin səbəblərini tapmaq”, “Sağlam olmağın şərtləri”, “Qorxular (fobyalar)”, V fəsildə “Uğur qazanmaq”, “İradə anlayışı”, “Motivasiya”, VI fəsildə “Sağlam yaşamaq”, “Musiqi və xoşbəxtlik”, “Xoşbəxt olmaq üçün şəxsiyyət pozğunluğundan uzaq olaq (psixi çatışmazlıq) ” adlı yazılarda gəldikləri elmi qənaətləri oxuculara təqdim edirlər. Kitabın son fəslində müxtəlif mövzularda və müxtəlif məzmunlu testlərə də yer ayrılıb: “Ailə və xoşbəxtlik”, “Həyatınla bağlı”, “Münasibət xoşbəxtliyi”, “Xoşbəxt ailəsiniz”.

Kitabın “Xoşbəxtlik haqqında mütəfəkkirlərin fikirləri” bölümündə ayrı-ayrı mütəfəkkirlərin fikir və düşüncələrini əks etdirən sitatlar verilib ki, bu da əsərin təkcə oxunaqlı olmasına deyil, həm də düşündürücü olmasına xidmət edir.

Kitabdakı “Xoşbəxtlik nədir?”, “Dəyişən dünyada xoşbəxtliyə çatmaq üçün nələr etməliyik?”, “Pozitiv düşüncə”, “Pozitiv həyat” və sair kimi mövzularda müəlliflər oxucular üçün maraqlı məsələlərə toxunublar.

“Xoşbəxt olmaq nədir?” bölümündə göstərilir ki, bəzi insanlar müvəffəqiyyəti, sadəcə, böyük rütbəyə sahib olmaq, çox pul, ad, şöhrət qazanmaq kimi başa düşürlər. Amma bilmirlər ki, pul, mal, şöhrət və rütbə gəldi-gedərdir. Bütün bunları əldə etməyi ən böyük həyat amalı kimi qəbul edənlər bu arzularına çatdıqda xoşbəxt olmadıqlarını hiss edirlər və ümidləri boşa çıxır. Əhəmiyyətli işlər görmək üçün, əlbəttə, bunlar lazımdır. Amma bunlar bir vasitədir, məqsəd deyil. Həzrəti Əli buyurur ki, xoşbəxtliyi malda, mülkdə, pulda axtarmamalıyıq. Xoşbəxtlik yaxşılıq edən yaxşı insanların içindədir.

*Əminliklə deyə bilərik ki, haqqında qısaca bəhs etdiyimiz “Sirli dünya – xoşbəxtlik” kitabı geniş oxucu marağına səbəb olacaq və bugünkü gəncliyin stolüstü kitabına çevriləcəkdir.*

**Həsənəli EYVAZLI**
**filologiya üzrə fəlsəfə doktoru**

Sağlam həyat

## Yay aylarında hansı idman hərəkətləri vacibdir?

***Yay fəslinin gəlişi insanın orqanizmində müəyyən dəyişikliklərin yaranmasına səbəb olur. Adətən, isti aylarda insanlar idmana daha çox meyil edirlər. Bunun bir sıra səbəbləri var: çəki salmaq, formada qalmaq, qışda hər hansı bir xəstəliklərdən qorunmaq və sair. Bu zaman ortaya bir sual çıxır: yay aylarında açıq havada ediləbiləcək əsas məşqlər hansılar ola bilər və ya hansı idman hərəkətləri vacibdir? Vəziyyətimizə və zövqümüzə əsasən tətbiq edəcəyimiz, ən əsası ürək fəaliyyətimizin normada olması üçün açıq havada bəzi məşqlərlə qısa müddət ərzində idmana adaptasiya ola bilərik.***

İlk olaraq yayda idman zalına getmədən və ya hər hansı idman alətinə ehtiyac duymadan açıq havada kalori yandıraraq bədən quruluşunu formada saxlamaq olar. Açıq havada oksigenin pozitiv enerjisi idman məşqlərinin bədənimizə təsir dərəcəsini də artırır. Nümunə olaraq 30 dəqiqə gəzinti, yüngül tempdə qaçış, velosipedsürmə, üzmə kimi hərəkətləri göstərmək mümkündür. Açıq havada bədənin formada qalması, artıq çəkilərdən uzaq olmaq və sağlamlığı qorumaq üçün, adətən, aşağıdakı məşqlər məsləhət görülür.

***Pilləkənlərlə çıxıb-düşmə.*** Bu, ayaq əzələlərimizi çalışdırdığımız zaman həmçinin yağ yandırmağımızı da təmin edəcək bir idman hərəkətidir. Bunu 15-30 dəqiqə etmək kifayətdir.

***Kürək hərəkəti.*** Bu hərəkət kürək əzələlərini inkişaf etdirir. Hərəkəti yerinə yetirmək üçün yerə üzüüstə uzanmaq və əlləri yerə dəyəcək şəkildə irəli uzatmaq lazımdır. Ayaqları düz vəziyyətdə pozmadan yuxarı qaldırıb saxlamaq kürək əzələlərini inkişaf etdirir. Bu, eyni zamanda onurğa sütununun düz qalmasına da müsbət təsir göstərir.

***Dirsək-diz hərəkəti.*** Bu hərəkət zamanı arxası üstə uzanmaq və ayaqları 90 dərəcədə masa vəziyyətinə gətirmək tələb olunur. Əllər üst-üstə birləşdirilib boyunun arxa tərəfinə qoyulur. Onurğanı sağa döndərərkən çarpaz, yəni sol dizi sol dirsəyə yaxınlaşdırmaq, sağ ayağı irəliyə doğru 45 dərəcə bucaq altında uzatmaq lazımdır. Diz və ayaqlar tam tərs istiqamətdə olmalıdır. Bu hərəkət daxildəki qarın əzələlərini və eyni zamanda yan qarın əzələləri olan maili əzələləri də çalışdırır.

Edilən hərəkətlər zamanı bəs nələrə daha çox diqqət yetirilməlidir? İdmanda istənilən nəticəni almaq üçün qidaların əhəmiyyəti çox böyükdür. Həkimlər tərəfindən sübut olunub ki, düzgün, balanslı qidalanma və maye istehlakı ilə məşqin səmərəliliyi artırıla bilər. Yəni insan düzgün və sağlam qidalanma sayəsində fiziki imkanlarını da artıra bilər. Qidalanma karbohidratlarla zəngin olmalı, lif miqdarı yüksək qidalar üstünlük təşkil etməlidir. Yetərli və balanslı qidalanma olarsa, əlavə vitamin və mineral istifadə etməyə ehtiyac yoxdur.

Yay aylarında gün ərzində istehlak edilən suyun miqdarı da məşqə təsir göstərir. İsti havada gündə ən az 10-15 stəkan su içilməlidir. Acqarına idman edilməməlidir. Məşqlər gərgin olacaqsa, əsas yemək məşqdən 3-4 saat əvvəl, ən gec 1 saat əvvəl yeyilməlidir. Qüvvə tələb edən idman növlərində qidalanmada zülalın artırılması əzələ kütləsinin artmasına da təkan verə bilər.

Yay aylarında idman edərkən insan gündəlik rejiminə fikir verməlidir. Bu əsnada yuxu çox vacib hesab olunur. Məhz gecə saatlarında insanın immun sisteminin mükəmməlləşməsi baş verir. Axşam saatlarında narahat yatan insanların immun sistemi rahat yatanlardan nisbətən daha ləng şəkildə formalaşır. Odur ki, natamam istirahət, yüksək fiziki, əqli və emosional yüklənmələr insanlarda yorulmaya, stresə səbəb olur.

Yay aylarında immunitetin yüksəldilməsi üçün yalnız həkim tərəfindən məsləhət görülən xüsusi preparatlardan başqa, təbii əsaslara malik olan və orqanizmin müdafiə qüvvəsini yaxşılaşdıran dərman preparatlarından istifadə edilməlidir.

**Ceyhun MƏMMƏDOV**

*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Uşaq Filarmoniyasının solistləri Rəna Mehralıyeva və Ataxan Quliyevin solo konserti olub. Konsert Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində keçirilib.*

## Naxçıvan Dövlət Uşaq Filarmoniyası solistlərinin solo konserti



Konsert başlamazdan əvvəl aparıcı ötən əsrin 70-ci illərindən başlayaraq ümummilli lider Heydər Əliyevin uşaqların təhsilinə, dünyagörüşlərinin formalaşmasına və sağlamlıqlarının qorunmasına yönələn tədbirlərdən danışıb. Bildirilib ki, bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət uşaq siyasəti uğurla davam etdirilir. Ölkəmizdə uşaq problemlərinin həllinə yönəldilmiş çoxsaylı dövlət proqramları qəbul edilib, gənc istedadlar üçün xüsusi təqaüdlər təsis olunub.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova respublikada keçirilən tədbirlərdə fəal iştirak etdiyinə görə gənc xanəndələrə fəxri fərman və hədiyyələr təqdim edib.

Konsert istedadlı solistlər Rəna Mehralıyeva və Ataxan Quliyevin “Şahnaz dəsgahı”nın ifası ilə başlayıb. Geniş yayılmış kiçikhəcmli “Şahnaz” muğamının ifası istedadlı solistlərin yaradıcılıq imkanlarının genişliyini göstərib.

Onların ifasında səslənən “Arazbarı” və “Ovşarı” ritmik muğamları konsert iştirakçılarında nikbin əhval-ruhiyyə yaradıb və zəngin musiqi mədəniyyətimizin əzəmətini sərgiləyib. Hər iki istedadlı muğam ifaçısının səsləndirdikləri “Çahargah” kompozisiyası da alqışlarla qarşılanıb. Rəna Mehralıyeva və Ataxan Quliyevin solo konserti “Qarabağ şikəstəsi” kompozisiyası ilə başa çatıb. Xanəndələr Naxçıvan Musiqi Kollecinin “Buta” muğam ansamblının müşayiəti ilə ifalarını səsləndiriblər.

**Fatma BABAYEVA**

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı yarandığı gündən indiyə qədər təkcə burda səhnələşdirilən əsərlərlə tamaşaçı rəğbəti qazanmayıb, həm də bu tamaşalarda çıxış edən istedadlı aktyorları ilə hörmət, sevgi qazanıb. Bu teatrda çox sənətkarlar həm səhnədə, həm də həyatda öz rollarını oynayıb və iz qoyublar.***

## Naxçıvan teatrında iz qoyan aktyor

Hər birinin də haqqında yazılar yazılıb, məqalələr dərc olunub, tənqidi fikirlər səsləndirilib. Ancaq etiraf edək ki, dərc olunan yazılarda özünə az yer tapsa da, teatr kollektivinin və 1970-90-cı illərdə teatrın tamaşalarını izləyən teatrsevərlərin yaddaşında həmişəyaşar bir aktyor var – İsgəndər Abdullayev. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında bu aktyorun haqqında tez-tez danışırlar. Onu hamı təbəssümlə xatırlayır. 1946-cı ilin mart ayında Naxçıvanda dünyaya göz açan İsgəndər Abdullayev 1992-ci ilin martında da dünyasını dəyişib. 1970-80-ci illərdə Naxçıvan teatrında oynadığı rollar həmişə orijinal olub. Maraqlı faktlardan biri onun o zaman Mirzağa Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunda oxuduğu illərlə bağlıdır. İmkansız ailədə doğulan İsgəndərin qeyri-adi istedadı olub. İnstitut illərində müəllimlərin diqqətini çəkib. Ancaq tez-tez tələbələrlə dava edirdi. Hətta bu hərəkətlərinə görə üç dəfə institutdan qovulub. Ancaq hər dəfə istedadına görə institutda dərs deyən aktyor, rejissor və pedaqoq Rza Təhmasib və ozamankı rektor Rahib Hüseynovun müdaxiləsi ilə yenidən bərpa edilib.

İsgəndər Abdullayev Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnələşdirilən “Məşədi İbad” tamaşasında bir neçə obrazı oynayıb. Hər biri də digərindən fərqlənib. Onun oynadığı Məşədi İbad bu gün də yaşlı teatrsevərlərin yaxşı yadındadır. Aktyorun dostu, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Elxan Şeyxov onunla bağlı xatirələrini bizimlə bölüşdü:

– İsgəndər kimi aktyorlar Naxçıvan teatrında çox az olub. Ona bütün rollar yaraşırdı. İstər komediya, istərsə də dram janrlarında yaratdığı obrazları ondan sonra heç kim oynaya bilmirdi. Bir dəfə Mirzə Cəlilin “Ölülər” əsəri tamaşaya qoyulmuşdu. O vaxt tamaşaları qəbul etmək üçün Bakıdan, Mədəniyyət Nazirliyindən mütəxəssislər gəlib əsərə baxırdı. İsgəndər də elə adaşını – Kefli İsgəndəri oynayırdı. Ancaq dublyoru da vardı. Dublyoru o vaxt teatrda işləyən tanınmış aktyorlardan birinin qohumu idi. Qohumu təkidlə rejissordan paytaxtdan gələn mütəxəssislərin qarşısında dublyorun oynamasını xahiş edirdi. Ancaq İsgəndərin oyununu daha çox bəyənən rejissor Vəli Babayev maraqlı bir addım atdı. Razılaşdı ki, birinci hissədə həmin aktyor, ikinci hissədə isə İsgəndər bu rolu oynasın. Nəticədə isə komissiya İsgəndərin oynadığı Kefli İsgəndəri bəyəndi və orijinal olduğunu təsdiqlədi. Başqa bir epizod isə onun oynadığı Məşədi İbadla bağlıdır. İsgəndər tamaşanın ara fasiləsində elə Məşədi İbadın geyimində və qrimində teatrdan çıxıb evlərinə gedir. Tamaşada onu axtarıb tapa bilməyən kollektiv məcbur qalıb ikinci hissəni bu rolun digər ifaçısı Əyyub Haqverdiyevlə oynayıb. İş burasındadır ki, heç kim, hətta teatrın rəhbərliyi belə, onun bu hərəkətlərindən incimirdi. Əksinə, onun istedadına hörmət edib hər dəfə güzəştə gedirdi.

Elxan Şeyxov daha bir hadisəni belə xatırlayır:

– Bir dəfə isə uşaqlar üçün hazırlanan “Şahzadə və bacatəmizləyən” tamaşası ilə kəndə gediblər. Sən demə teatrın rekviziti işləyən adam əsərin əsas qayəsi olan soba və onun bacasının dekorasiyasını unudub (teatrda belə hallar olur). Əsərin qəhrəmanı olan bacatəmizləyəni də İsgəndər Abdullayev oynayırdı. Orada dekorasiyasız elə bir oyun oynamışdı ki, hətta tamaşaçılar bu yoxluğu hiss etməmişdi.

İsgəndər Abdullayev 46 il ömür yaşadı. Yaşasaydı bu il 70 yaşı olacaqdı. Bu illər ərzində hansı rolları oynayacaqdı və Naxçıvan teatrında özünün hansı yaradıcılıq salnaməsini yazacaqdı, bunu bilmirik. Ancaq onun yaşadığı qısa yaradıcılıq ömründə “O olmasın, bu olsun” da Məşədi İbad, “Ölülər”də Kefli İsgəndər, “Dəli yığıncağı”nda oynadığı Heydər və onlarla obraz övladı kimi yaddaşlarda yadigar qaldı.

**Səməd CANBAXŞIYEV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 485